**Prof.Dr. Düsen KASEYİNOV**

*Beynəlxalq Türk Mədəniyyəti Təşkilatının (TÜRKSOY) baş katibi*

## ÇİNGİZ AYTMATOVUN 90 İLLİYİNƏ

1993-cü ildə qurulan Beynəlxalq Türk Mədəniyyəti Təşkilatı – TÜRKSOY 25 ildə türk xalqlarının mədəni müstəvidə qarşılıqlı inteqrasiyasına, əlaqələrin inkişafına töhfə verən qurum olmuşdur. TÜRKSOY bu gün 6-sı daimi, 8-i müşahidəçi olmaqla, 14 üzvlə türk dünyasını birləşdirən ən əhəmiyyətli təşkilatlardan biridir. TÜRKSOY-un məqsədi türk xalqları arasında mənəvi körpüləri gücləndirmək, türk mədəniyyətini gələcək nəsillərə və dünyaya tanıtmaqdan ibarətdir.

TÜRKSOY hər ili tarixin ən qədim çağlarından bu günə qədər türk xalqlarının taleyində əhəmiyyətli rol oynamış görkəmli şəxsiyyətlərə həsr edir. 2018-ci il bu baxımdan dünya şöhrətli qırğız yazıçısı Çingiz Aytmatovun 90 illik yubileyidir. TÜRKSOY 2018-ci ilin “Çingiz Aytmatov ili” elan olunması ilə bağlı qərar qəbul edib. Çingiz Aytmatov yazdığı böyük əsərlərlə dünya ədəbiyyatında tutduğu mövqe miqyası etibarilə o qədər böyükdür ki, hər hansı ilin ona həsr olunmasına xüsusi ehtiyac yoxdur. Türk dünyası Çingiz Aytmatovun yaradıcılığını sevə-sevə oxuyur və onunla fəxr edir.

Çingiz Aytmatovun çoxtərəfli yaradıcılığı türk dünyasının mənəvi birliyini isbatlayan mühüm mənbədir. Bu gün dünyanın dörd bir yanında Çingiz Aytmatovun əsərləri tərcümə olunaraq böyük tirajlarla nəşr olunur. Onun əsərləri dünyada yaşayan millətlərin böyük marağına səbəb olan, sevgisini qazanan mənəvi bir xəzinəyə çevrilmişdir. “Böyük Çingiz xan dünyanı qılıncı ilə, böyük Çingiz Aytmatov isə dünyanı qələmi ilə fəth etmişdir!”, – fikri boş yerə söylənilməyib. Aytmatov haqqında danışmağa zaman və kəlmələr yetməz. O, bütün cəhətləriylə örnək bir həyat yaşamışdır. Atasını repressiyada itirən, uşaqlıqdan hər cür məşəqqətlərə sinə gərə bilən Çingiz Aytmatov övladları üçün gözəl ata, millətinin qürur yeri, dünyaca tanınmış yazıçı, siyasətçi və dövlət adamı, professional diplomat və bir çox başqa keyfiyyətləri ilə örnək bir şəxsiyyətdir.





TÜRKSOY “Çingiz Aytmatov ili”nə 18 apreldə Ankarada keçirilən açılış tədbiri ilə başlamışdır. Geniş coğrafiyada yaşayan ayrı-ayrı türk xalqları Çingiz Aytmatova həsr olunmuş yubiley tədbirləri keçirməkdədir. Onun kitabları yenidən nəşr olunur, haqqında kitablar, məqalələr yazılır.

Hələ sovet dövründən Çingiz Aytmatovun taleyi Azərbaycanla çox sıx bağlı olmuşdur. Onun Azərbaycanda çoxlu dostları olmuşdur. Azərbaycanda da Çingiz Aytmatova hər zaman xüsusi münasibət göstərilmişdir. Əsərləri ardıcıl şəkildə tərcümə olunaraq dəfələrlə nəşr edilmişdir. Bu baxımdan Çingiz Aytmatovun yubiley tədbirləri çərçivəsində Azərbaycanın gördüyü və görəcəyi işlər mühüm əhəmiyyət kəsb edir.

Azərbaycan Milli Elmlər Akademiyasının Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda görkəmli yazıçının həyat və yaradıcılığının tədqiqi, onun əsərlərinin tərcüməsi ilə bağlı bir çox işlər görülüb. Şübhəm yoxdur ki, “Çingiz Aytmatov ili”nin yekununda Azərbaycan Milli Elmlər Akademiyasının Ədəbiyyat İnstitutu zəngin fəaliyyəti ilə Çingiz Aytmatovun ruhu qarşısında; türk dünyası naminə dolğun hesabatını verəcəkdir.

**Duisen Kaseinov**

### CHINGIZ AITMATOV'S 90$^{th}$ ANNIVERSARY

### SUMMARY

The International Organization of Turkic Culture (TURKSOY) declared 2018 as the year of "Chingiz Aitmatov" on the occasion of his 90$^{th}$ anniversary and 10$^{th}$ anniversary of death. An opening ceremony was held in Ankara and continues consistently in the Turkish world. It is no doubt that Azerbaijan will make the most significant contribution to the anniversary of Chingiz Aitmatov.

**Дюсен Касеинов**

**К 90-ЛЕТИЮ ЧИНГИЗА АЙТМАТОВА**

**РЕЗЮМЕ**

В связи со дня рождения и 10 летием со дня смерти выдающегося киргизского писателя 2018 год объявлен Международной Организацией Тюркской культуры – Тюркской «Годом Чингиза Айтматова». Поэтому случаю в Анкаре состоялось открытие этого литературного праздника, который будет последовательно продолжен в странах тюркского мира. Несомненно, то что Азербайджан внесёт свой весомый вклад в проведение юбилея Чингиза Айтматова.